# ÇALDIRANA GEDƏN YOL

## romandan səhifələr



Hüseynbala MİRƏLƏMOV

*Şah İsmayıl Şiraza daxil olandan sonra, birinci qoşunun yerləşdirilməsi haqqında göstəriş verdi. Neçə vaxtdan bəri döyüşlərdən və aramsız səfərlərdən yorulmuş qoşun əhlinə istirahət verilməsi hər kəsdə bir sevinc və arxayınlıq yaratdı. Bu, o deməkdir ki, yaxın günlərdə müharibə gözlənilmir.*

*Abdulla Şiştərinin göndərdiyi çapar şahın yanına iki gün əvvəl yetişmişdi. Şah da Abdulla Şiştərinin məktubunu oxuyandan sonra xeyli məmnun olmuşdu. Birincisi ona görə ki, o, Abdulla Şiştəriyə inanırdı. Bilirdi ki, Qalabəyi Səfiyyədin ocağına çox sədaqətlidir. İkincisi də məktubdakı xəbər özü də Şah İsmayılın istəyincə idi. Yəni, Sultan Murad baş götürüb qərbə - Diyarbəkirə tərəf getmişdi. Doğrudur, Sultan Murad çox hiyləgər adam idi. Əgər onun imkanı olsa idi belə bir niyyətlə həm Abdulla Şiştərini, həm də Şah İsmayılı aldatmaq istəyərdi. Ancaq şahın bunu da ağlı kəsmirdi. Çünki, Sultan Muradın ixtiyarında olan az qüvvəni belə təmin edəcək sursatı və ərzağı yox idi. Demək Sultan Murad ancaq öz başını salamat saxlamaq yolunu tutmuşdu. Bu yol da ondan ibarət idi ki, mümkün qədər Şah İsmayıldan uzaqlaşaydı.*

*Şah bütün bunları götür-qoy etdikdən sonra Təbrizə, qardaşı İbrahim Mirzəyə məktub göndərdi ki, əmirlərin və özünün ailə üzvülərini Şiraza gətirsin. Hərbi səfərlərin ağırlığı, döyüşlərin gərginliyi onun gənc varlığını az qala sarsıtmışdı. Əgər özündən olsa idi bundan sonra daha heç bir döyüşə girmək fikrinə düşməzdi. Ancaq onu da yaxşı bilirdi ki, hələ də onu istəməyən qüvvələr inadlarından əl çəkmək fikrində deyil.*

*Hələ ki, qarşıda Səfəvi ocağı üçün ciddi bir təklükə görünmürdü. Yaranmış bu sakitlikdən istifadə edib əhalinin güzaranını yaxşılaşdıracaq fərmanlar verdi. Ən ağır vəziyyətdə olan əyalətlərə yardımlar göndərdi. Döyüşlərdə həlak olanların ailələrinə külli miqdarda vəsait ayırdı. Yolların abadlaşdırılması, körpülərin salınması da yaddan çıxmadı. Bütün bunların hamısını Sultan Muradın Şirazda ələ keçirilmiş xəzinəsi hesabına həll elədi. Qoşun əhli də aldığı məvacibdən çox razı qalmış, şahın tanrı dərgahında başının uca olması üçün dualar eləmişdilər.*

*(Əvvəli ötən saylarımızda)*

Hökmdar bütün bunların hamısının dəqiq və düzgün icrası üçün nəzarətçilər ayırmışdı. Bir məsələ isə şahı düşündürməli olmuşdu. Ona xəbər verdilər ki, Şiraz sarayında ayrı-ayrı əyalətlərdən, Sultan Muradın adamları tərəfindən məcburən saraya gətirilmiş qızlar var. Şah Hüseyn Lələ bəyə qızların taleyinin necə olacağını sorğu elədi.

-Hökmdar sağ olsun! Özün necə məsləhət bilsən, tədbirinə əməl olunar.

Şah fikirli-fikirli başını yuxarı qaldırdı:

- Yəqin ki, bu qızların çoxu Sultan Muradın adamları tərəfindən məcburən saraya gətirilib. Yaxşı olar ki, onları azad edək. Hüseyn Lələ bəy əlini sinəsinə qoyub təzim elədi:

-Baş üstə, hökmdar.

-Ancaq bir məsələni unutmayın. Əgər kimsə istəyirsə qalıb sarayda qulluq edər.

Bayaqdan bəri Hüseyn Lələ bəy demək istədiyi sözü indi dilinə gətirdi:

-Doğrudur, hökmdar, əksəriyyət öz yerinə-yurduna qayıtmaq istəyir, eləlri də var ki, sarayda qalıb xidmətlərini davam etdirmək istəyirlər. Aralarında bir qız var ki, məxsusi olaraq şaha xidmət etmək istəyində inadlıdır.

-Öyrənmisinizmi necə olub ki, saraya düşüb?

-Hökmdar, özünün dediyinə görə ata-anası Sultan Muradın adamları tərəfindən öldürülüb, özü də saraya məcbur gətirilib. İndi də kənarda elə də qohum-əqrəbasının olmadığını deyir.

-Yaxşı, onu mənim yanıma gətirərsiniz, özüm danışdıraram.

Bununla da Hüseyn Lələ bəylə şah arasındakı söhbət bitmiş, Hüseyn Lələ bəy tədbirlərin icrası üçün getmişdi.

...Şah axşam üstü Şirazın saray baxçasına çıxmışdı. Bir anlığa şaha elə gəldi ki, "Təbrizin səkkiz cənnət" bağındadır. Bir çox cəhətdən bu bağ Təbrizdə Uzun Həsənin yaratdığı "Səkkiz cənnət" bağına bənzəyirdi. Şah öyrənmişdi ki, Sultan Murad Şirazda Ağqoyunlu sarayına bənzər saray qurmuş və onun da qabağında gözəl bir bağ salmışdı. Sultan Murad bir daha Təbrizə qayıda bilməyəcəyini düşündüyündən gəncliyinin, uşaqlıq çağlarının keçdiyini Təbrizin "Səkkiz cənnət"ini bir növ burada özünü ovundurmaq üçün yaratmağa çalışmışdı. Bunun üçün xəzinəsindən vəsait ayırmağa da qızırğanmamışdı.

Şah bağda gəzərkən sanki, Təbriz sarayının qabağında özünü hiss elədi. Oğuzlar, Arxlar hətta Təbriz bağındakı ağaclar belə eyni idi. Bu da istər-istəməz onun xəyalını çəkib Təbrizə aparmışdı. Elə düşünürdü ki, indi bu saat Taclı bəyim hovuzun yanında görünəcək, o da sevgilisini sonsuz bir istəklə süzəcək və daha bu görüş Taclının inadı ilə kənardan-kənardan olmayacaqdı. Qızı sonsuz bir sevgi, hədsiz bir istəklə bağrına basacaqdı, onu öpüb, oxşayacaqdı. Belə məqamlarda şahın duyğulu könlü cuşa gəlir dilindən bütün varlığının titrəyişi olan sevgisinin təzahürü kimi qəzəl cilvələnərdi.

Heç şahın xəbəri olmadı ki, onun ruhunda çağlayan duyğular necə misralandı. Bir-birini tamamlayan sözlər inci kimi düzüldü. Şahın xəyalı qanadlandı, ruhu uçdu. Heç özü də bilmədi ki, sevgisinə, sevgilisinə küləklərlə göndərəcəyi qəzəli bədahətən dodaqlarından necə car elədi:

Firqətin çəkdim, nigara, şimdi yar olmazmısan?  
Ixtiyarım getdi əldən, ixtiyar olmazmısan?

Intizarım həddən ötdü, hicr ilə oldum həlak,  
Fəmli gönlüm halına bir qəmküsar olmazmısan?

Düşməni-dəmdəsd əlindən bülbüli-can oldu lal,  
Vəqtidir gül çöhrən çəkdin, ey dil, zülmət-hicran ilə,

Munca möhnət çəkdin, ey dil, zülməti-hicran ilə,  
Ol məhin vəslinə yetdin, bəxtiyar olmazmısan?

Gər günahın çox isə miskin Xətayi, qəm yemə,  
Rahmətinə xaliqin ümmidvar olmazmısan?

Gənc şah intizar çəkən bir aşiq olaraq həsrətini öz qəzəli ilə ovundururdu.

Şahın sinəsində ürəyi döyündü. Ona elə gəldi ki, at ayaqlarının səsini eşidir. Bir az da diqqət kəsildi. Yox, səs kənardan gəlmirdi. Ürəyinin səsi idi, qəlbinin səsi idi. İndi anladı ki, ürəyinin hər döyüntüsü ilə qəlbinə, varlığına hakim olan adın özünü görür və eşidir.

O, xəyalən hesablayırdı ki, İbrahim Mirzəyə xəbər nə vaxt çatacaq. Əmirlərin əhli-əyaları neçə günə Şirazda olacaq. Onların arasında Taclı bəyim şahanə bir gül kimi Şahın nəzərini lap uzaqdan çəkəcəkdi. Şah gözlərinin qabağına gətirdiyi sevgilisinin gözəlliyi önündə donub-qalacağdı.

Əlbəttə, bütün bunlar şahın ruhunu ovunduran düşüncələr idi. O, Təbrizdən gələnləri gözləmək, sonra bir çox məsələləri həll etmək üçün əmirləri yığıb müşavirə etmək qərarında idi. Şahın özünə qalsaydı bütün qışı Şirazda keçirər, elə burada da öz istəyinə yetərdi...

Gec də olsa Şah saraya qayıtdı. Qayıdvn kimi ona xəbər verdilər ki, Hüseyn Lələ bəyin tapşırığı ilə Sultan Murad sarayından olan həmin qız onunla görüşmək istəyir. Gənc şah Hüseyn Lələ bəylə olan söhbəti xatırladı.

Qız içəri girib Şahın bir neçə addımlığında dayandı. Şah başını qaldırıb gənc qızı süzəndə elə bil ki, vücudu üsyan elədi.

-Sənin adın nədir?

-Adım İncəbeldir, şahım.

-Lap elə adına yaraşırsan. Bəs niyə vətəninə getmək istəmədin?

-Aləmələrin işığı olan şahın ətrafında olmaq zülmətdə olmaqdan yaxşı deyilmi?

Qızın cavabı şahın xoşuna gəldi.

-Yaxşı, indi bura sənin üçün qürbət olacaq, bəs sənin qəlbin sıxılmayacaqmı?

-Xeyr, Şahım. Sənin nəfəsini üstümdə hiss etsəm, əmin, arxayın olaram.

İncəbelin sözləri şahın düşüncəsinə hakim kəsildi.

-Yaxşı, sən belə gözəl nitqi, sözləri mənasına görə seçib danışmağı hardan öyrənmisən?

-Mənim babam Ərdəbil ocağının müridi olub. Evimizdə hər vaxt mötəbər adamlar görmüşəm. Onların hikmətə necə dəyər verdiklərini eşitmişəm.

Şah qızın ağıl və hikmət yağan gözlərinin sanki sehrinə düşdü. Yerindən qalxıb ona tərəf yeridi. İncəbel yerindən tərpənmədi. Şah əlini uzatdı, İncəbel bir qədər tərəddüd eləsə də sağ əlini yuxarı qaldırdı. Şah onun əlini tutdu. Qızın məhəbbətlə, sevgi ilə baxan gözlərindən gözünü çəkə bilməyən şah onu özünə tərəf çəkdi. Lap nəfəs-nəfəsə idilər.

Sanki, ildırım çaxdı, şimşək oynadı. Şahın vücudunda bir titrəyiş oynadı. Ona elə gəldi ki, Taclı elə bu vaxt içəri girdi. Şah qızın əlini buraxmasa da təşvişlə qapıya baxdı. Qapı açılmamışdı və otaqda da onunla İncəbeldən savayı bir kimsə yox idi. Deyəsən, şah özünə gəldi və yenə İncəbelin hərarətli nəfəsi onu çəkirdi.

Yox, heç bir ildırım çaxmamışdı və tufan qopmamışdı. Şah İncəbelin əlindən tutub özü ilə sarayın uzaq bir hücrəsinə getmək istəyində idi.

-Yox şahım, mən bilirəm sənin sevgilin var. Mən qaratikan kolu olmaq istəməzdim. Ancaq, ömrümü sənə və sevgilinə qulluq edərək keçirməyi özümə səadət bilərdim.

Bəlkə, də İncəbelin bu sözləri olmasaydı, şah fikirindən dönməyəcəykdi. Amma, İncəbelin bu sözləri həqiqətən sevgilisi Taclıbəyimi lap elə onun hüzuruna gətirdi. O, Taclının gözlərinə baxmaqdan utandı.

Şahın varlığına bir xəcalət təri gəlmişdi. Ürəyində İncəbelə minnətdarlıq eləyirdi. Onun qəlbinin böyüklüyü, varlığının təmizliyi önündə özünü günahkar bilirdi: "Yox belə olmazdı, Tanrı mənə şahlığı ona görə verməyib ki, mən hər cür əhdi-peymanı ayaqlamaq iqtidarında olum".

Yaxşı yadında idi Lələsi Qənbər ağa ona deyərdi ki, "Sevgidə kamil olan hakimiyyətdə də kamil olar".

Şah saray başqanını çağırdı. İncəbelə sarayda hər cür hörmət göstərilməsi haqqında tapşırıq verdi. Yalnız bundan sonra sevgilisi Taclıbəyimdən xəyalən üzürxahlıq dilədi.

*(Davamı var)*